

# Heydər Əliyev İli 2023

# Heydər Əliyevin dövlətçilik fəaliyyəti qətiyyət, aşkarlıq və kollegiallıq nümunəsidir

**Yüz illiyini qeyd etdiyimiz Ulu Öndərin 2023-cü ildə həyatının hər anı yenidən vərəqlənir, onu tanıyan insanların qəlbində özünə məskən salmış və heç vaxt unudulmayacaq obrazı canlanır.**

Bütün ömrünü Azərbaycanın tərəqqisinə, onun varlığının dünyada tanıdılmasına, bugünkü müstəqilliyimizin bünövrəsinin qoyulmasına və möhkəmlənməsinə həsr etmiş bu dahi insanın adı tariximizin ən parlaq şəxsiyyəti kimi daim xatırlanacaq və yaşayacaqdır.

Ona görə yaşayacaqdır ki, xalqının, dövlətinin qorunması, yaşadılması və tərəqqisi üçün hətta özünü qurban verməyə belə hazır olmuş, Azərbaycan üçün hər zaman sinəsini sipər etmişdir. Onun həyat kredosu bundan ibarət idi ki, dövlətçilik haqqında düşünən adam, xüsusən dövlətə başçılıq edən insanlar heç vaxt özü haqqında düşünməməlidir.

Heydər Əliyev ona görə daim xatırlanacaq ki, o, hələ sovet dövründə Azərbaycanın zəngin iqtisadi və sənaye potensialını yaratmaqla müasir dövlətçiliyimizin bünövrəsini qoymuş, müstəqillik illərində isə onun çağdaş dünyanın tələblərinə cavab verən hüquqi bazasının formalaşmasını təmin etmiş, beynəlxalq prinsip və normalara uyğun qanunlarının və digər normativ hüquqi aktlarının hazırlanmasına uğurla rəhbərlik etmişdir. Heydər Əliyevin dövlətçilik fəaliyyətinin əsas ideyası, bu sahədə qarşıya qoyduğu əsas vəzifə Azərbaycanın dövlət müstəqilliyini qorumaq, saxlamaq, möhkəmləndirmək, inkişaf etdirmək və onu əbədi etmək idi. Bu baxımdan bilavasitə Heydər Əliyevin rəhbərliyi və iştirakı ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də ümumxalq referendumunda qəbul olunmuş yeni Konstitusiyanı xüsusi vurğulamaq lazımdır.

Ulu Öndər deyirdi: *"Biz elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsipləri əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun".*

Bu Konstitusiya çox böyük uzaqgörənlik və müdrikliklə hazırlanmış, Azərbaycanın müstəqilliyinin əbədiləşdirilməsi üçün möhkəm hüquqi bazanın yaradılması ilə başa çatmışdır və artıq 30 ilə yaxındır ki, ölkəmizin varlığının, onun idarəçilik sisteminin əsas prinsiplərini müəyyən edir, dövlətimizin gələcəyini, qüdrətini və sarsılmazlığını təmin edir.

İnsan hüquq və azadlıqlarının bütün zəruri meyarlarını təsbit edən əsas qanunumuzda hər bir müddəanın hərtərəfli və dərindən düşünülmüş şəkildə təsbit olunduğu göz qabağındadır. Ölkənin siyasi, iqtisadi, hüquqi sistemini müəyyən edən bu ana qanunumuzun hər bir cümləsi, hər bir sözü Ulu Öndər tərəfindən dönə-dönə yoxlanılmış, bütün prinsipial məsələlər, ölkə ictimaiyyəti, ziyalıları, sıravi vətəndaşları ilə müzakirə edildikdən sonra qəbul olunmuşdur.

Belə müddəalardan biri də Azərbaycanın dövlət dilinin müəyyən edilməsi ilə bağlı olmuşdur. Keçmiş sovetlər ittifaqının tərkibində olarkən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi kimi respublikaya rəhbərlik edən Ümummilli Liderin çox böyük səyləri nəticəsində digər sovet respublikalarından fərqli olaraq Azərbaycan Respublikasının 1978-ci ildə qəbul edilmiş Konstitusiyasında Azərbaycan dilinə dövlət dili statusu verilmişdi. O zaman üçün böyük tarixi hadisə hesab edilən bu fakt böyük rezonans doğurmuş, məhz Azərbaycanın sayəsində qonşu respublikaların konstitusiyalarında da belə bir müddəa əks olunmuşdur.

Azərbaycanın yeni Konstitusiyasının hazırlanmasına hələ 1991-ci ildən cəhd göstərilsə də, yaranmış tarixi şərait buna imkan verməmiş və bu mühüm işə yalnız 1995-ci ildə start verilərək həmin ildə də başa çatdırılmışdır. O dövrdə yaşayan insanlar yəqin ki, Azərbaycan tarixinin bu çətin və mürəkkəb dövrünü yaxşı xatırlayırlar. İqtisadi çətinliklər, yurd-yuvasından didərgin salınmış məcburi köçkünlərin problemləri, dövlət çevrilişinə edilən cəhdlər, neft gəlirlərinin hələ ölkəyə daxil olmaması, ordu quruculuğunda çətinliklər yaşanması və onun çox mürəkkəb problemlərinin həlli, erməni diasporunun təsiri altında olan və ikili standartlar prinsipi ilə işləyən beynəlxalq təşkilatların, bir çox xarici dövlətlərin nümayəndələrinin ölkəmizə qarşı açıq-aydın düşmən münasibəti vəziyyəti daha da çətinləşdirirdi. Bu çətinlikləri dəf etməklə yanaşı, xalqımızın, dövlətimizin gələcək taleyini, müqəddəratını müəyyən edən hüquqi bazanın - yeni Azərbaycan Konstitusiyasının hazırlanması və qəbul edilməsi o zaman üçün ağlasığmaz dərəcədə mürəkkəb məsələ idi.

Təkcə Azərbaycanın yeni Konstitusiyasının hazırlanması prosesini izləmək kifayətdir ki, o dövrdə baş verən tarixi hadisələrin, həm də böyük siyasətçi və dövlət xadiminin ən çətin vəziyyətlərdə necə çıxış yolu tapmasının şahidi olasan. Heydər Əliyevin Azərbaycan xalqının taleyinə xilaskar kimi göndərilən bir ilahi şəxsiyyət olduğunu ancaq onun gördüyü bu misilsiz işlər əsasında müəyyən etmək olar.

Heydər Əliyev özünün böyük, heyrətamiz istedadı və təşkilatçılıq qabiliyyəti ilə çox zəngin, mükəmməl idarəçilik məktəbi, dövlətçilik ənənəsi yaratmağa nail oldu. Ömrünün ilk gənclik illərindən həyatın bütün çətinliklərini, sıxıntılarını yaşamış, sovet sisteminin iç üzünü yaxından görüb öyrənmiş bu müdrik dövlət xadimi heç vaxt emosiyalara qapılmır, hər hansı qərarı qəbul edərkən son dərəcə soyuqqanlılıq göstərir, necə deyərlər, hər bir qərarı yüz dəfə ölçüb-biçirdi. O, Azərbaycanın dövlət rəhbəri kimi bütün dünyaya bəyan edirdi ki, biz respublikanın ictimaiyyətinə də, cəmiyyətinə də, bütün dünyaya da açığıq. Ona görə heç kəsdə buna heç bir şübhə olmasın ki, respublikamız üçün taleyüklü, tarixi əhəmiyyətli məsələləri tam aşkarlıq şəraitində, demokratik prinsiplər əsasında həyata keçirəcəyik.

Onun xalqın təkidi ilə Azərbaycan rəhbərliyinə gətirilməsi Azərbaycan tarixində tam yeni bir mərhələnin başlanğıcı oldu. Hələ Milli Məclisin sədri kimi fəaliyyətə başladığı gündən səriştəsiz rəhbərlərin günahı üzündən param-parça edilmiş, düşmən tapdağına verilmiş doğma Azərbaycanımızın bir Simurq quşu kimi odun-alovun içindən çıxaraq yenidən pərvazlanması, xalqımızda Azərbaycanın gələcəyinə inam yaradılması, acı həqiqətləri üzə deməklə hər kəsin əsl simasını göstərmək, Azərbaycana nə dərəcədə sadiq vətəndaş olmasını çox qısa bir zaman kəsiyində sübuta yetirmək ancaq Heydər Əliyev kimi böyük siyasətçilərə nəsib ola bilərdi.

Heydər Əliyevin xalqına əsl sədaqəti, ilk növbədə, onun heç nəyi xalqdan gizlətməməsi və çıxış yolunu xalqla birlikdə axtarması idi. Heydər Əliyev cəmiyyətin bütün siyasi qüvvələrini dövlətin mənafeyi üçün səfərbər etməyi vacib hesab edərək ölkədə fəaliyyət göstərən siyasi partiyaları və təşkilatları ümummilli məsələlərdə bir yerdə olmağa çağırırdı.

Heydər Əliyevin dövlətçilik fəaliyyətinin əsas cəhətlərindən biri də bu idi ki, o, xalqı ilə ünsiyyətdən, birbaşa dialoqdan qətiyyən qorxmur, çəkinmirdi. Onun respublikanın müxtəlif regionlarına etdiyi mütəmadi səfərlər, əhali ilə keçirdiyi görüşlər bu gün də maraqla qarşılanır və hörmətlə yad edilir. Milli Məclisin sədri kimi Qarabağın taleyi ilə bağlı parlamentdə açdığı müzakirəni unutmaq mümkün deyil. Xalq televiziya ekranları qarşısında aparılan açıq söhbətləri, danılmaz həqiqətlər üzərində qurulan ümumxalq dialoqunu və bunun keçirilməsində Heydər Əliyevin yalnız bir məqsədi olduğunu aydın görür və dərk edirdi. Məqsədin ancaq Azərbaycanın azadlığı və müstəqilliyinin əbədiləşdirilməsi olduğu Azərbaycan vətəndaşlarında heç bir şübhə doğurmurdu.

Ərazisi işğal olunmuş, bir milyona yaxın qaçqını və məcburi köçkünü olan Azərbaycana heç bir xarici maddi dəstək olmadığı halda, bu xalqı yaşadan və onun lazımi həyat şəraitini təmin edən Azərbaycan bu işləri məhz Heydər Əliyevin titanik səyləri nəticəsində həyata keçirə bilirdi.

O illərdə baş verən bu hadisələrin canlı şahidi və müəyyən dərəcədə iştirakçısı olduğum üçün Ulu Öndərə və taleyimə həmişə minnətdar olmuşam və olacağam. Ulu Öndər haqqında, onunla görüşdüyüm anlar, unudulmaz dəqiqələrlə bağlı təəssüratlarımı vaxtilə mətbuatda bölüşdüyümə görə onları təkrarlamaq istəməsəm də, böyük siyasi xadimin idarəçilik məktəbindən az-çox bəhrələndiyimi qürurla qeyd etmək istərdim. İşimin xüsusiyyəti ilə əlaqədar ünsiyyətdə olduğum hər bir anı xatırlayıram və onlar yaddaşımda əbədi həkk olunmuşdur. Heydər Əliyevin yaratdığı idarəçilik sisteminin yüksək tələbkarlıq və qətiyyətlə müşayiət edildiyinə görə çox səmərəli işlədiyinin şahidiyəm.

Heydər Əliyevin dövlətçilik fəaliyyətinin idarəçilik üslubunun əsas xüsusiyyətlərinin öyrənilməsi bu gün üçün də gərəkli və zəruridir. Ulu Öndərin siyasi xəttini olduqca yüksək səviyyədə həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyev məhz Heydər Əliyevin idarəçilik məktəbinin yetirməsi olduğuna görə bu gün dünya siyasətçilərinin aparıcı simalarından biri sayılır və böyük nüfuz qazanmışdır.

Heydər Əliyevin əsas cəhətlərindən biri o idi ki, o, realist siyasətçi idi. O, həyatın tələblərini vaxtında və düzgün qiymətləndirməyi, qətiyyətli qərarlar qəbul etməyi bacaran rəhbər idi. Bu dahi insanın dövlətçilik fəaliyyətini və idarəçilik təcrübəsini öyrənmək üçün onun siyasi irsini daha dərindən araşdırmaq və tətbiq etmək bu gün də vacib məsələlərdən biridir.

Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndərin 1993-2003-cü illərdəki fəaliyyəti haqqında danışarkən haqlı olaraq qeyd edir ki, bu illər ölkəmiz üçün həlledici illər olmuş, məhz həmin dövrdə dövlətçiliyimizin möhkəm təməli qoyulmuş, Azərbaycanın istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətti müəyyən edilmiş, respublikamız dünya birliyinə qovuşaraq özünü tanıtdıra bilmiş, ciddi islahatlar aparmış, ölkəyə böyük həcmdə investisiyalar cəlb edilmiş, müstəqil dövlətin Konstitusiyası qəbul edilmiş, siyasi sistem möhkəmlənmiş və ölkəmizin uğurlu inkişafı üçün möhkəm zəmin yaradılmışdır.



Heydər Əliyevin həyatının sonuncu 10 ili zamana sığmayan illərdir, yəni həmin illər ərzində onun Azərbaycan xalqı üçün gördüyü işlərin miqyası həqiqətən ölçüyəgəlməzdir. Əvvəldə qeyd etdiyim kimi, bilavasitə iştirakçısı olduğum tədbirlərdə onun nə qədər zəngin erudisiyaya, böyük dünyagörüşünə sahib olduğunu daha yaxından görür və müşahidə edirdim. Keçirdiyi çox məhsuldar, səmərəli müşavirə və digər tədbirlərdə Ulu Öndər hər kəsi diqqətlə dinləyərək öz müdrik tapşırıq və tövsiyələri ilə operativ həll olunmalı məsələlərlə yanaşı, Azərbaycan dövlətinin və ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsində böyük əhəmiyyət daşıyan problemlərə də xüsusi diqqət yetirirdi.

Bir daha Ulu Öndərin bizə yadigar qoyduğu Konstitusiyamızın müzakirələri göz önündə canlanır. Ümumxalq referendumunda qəbul edilmiş bu akt Azərbaycanın tale aktı, tale sənədi sayılmalıdır.

Həmin dövrün mətbuatda dərc edilmiş və Prezident Administrasiyasında saxlanılmış stenoqramlarını vərəqləyərkən, onun dövlət idarəçiliyi sistemi haqqında irəli sürdüyü əsas tezislərin, müəyyən etdiyi istiqamətlər və prinsiplərin son dərəcə əhəmiyyətli olduğu bir daha öz təsdiqini tapır. Onun bu sahədə irəli sürdüyü fikirlər bu gün Azərbaycanda dövlət idarəçiliyinin əsas mahiyyətini ifadə edir və həmin tezislər və ideyalar daim öyrənilməyə, araşdırılmağa layiqdir. Bir daha Konstitusiya ilə bağlı müzakirələrə qayıtmaq yerinə düşərdi.

Konstitusiya hazırlığı üzrə komissiyasının 1995-ci il iyunun 5-də keçirilən birinci iclasında Azərbaycanın Konstitusiya tarixinin dərin təhlili aparılır, bu sahədə olan bütün məsələlər ətraflı araşdırılır və qiymətləndirilirdi. Sovet dövründə qismən olsa da müstəqilliyi olan Azərbaycan Respublikasının 1978-ci ildə qəbul etdiyi Konstitusiyasının məhdudiyyətlərinə baxmayaraq, xalqımızın böyük uğurlarının olması danılmazdır və 1993-cü ildən başlayaraq bu uğurların davam etdirilməsi istiqamətində işlərin görülməsi ilə yanaşı, böyük dövlət xadimi və uzaqgörən siyasətçi kimi Heydər Əliyev Azərbaycanın xoşbəxt və müstəqil yaşamasını təmin etməyə, eyni zamanda əsaslı milli maraqlarının nəzərə alınmasına səy göstərmişdir.

Hazırda mövcud olan Azərbaycan Konstitusiyasının bu gün ən demokratik və hərtərəfli bir qanun olmasını zaman sübut etmişdir. Ulu Öndər bu məsələyə o qədər böyük diqqətlə yanaşırdı ki, özünün qeyd etdiyi kimi, 1995-ci ildə həyatının 6 ayını ancaq bu məsələlərin müzakirəsi ilə məşğul olmuş və mükəmməl bir Konstitusiya hazırlamaq üçün respublika ziyalılarının bütün potensialını, eyni zamanda xarici ölkələrin təcrübəsini dərindən öyrənən insanları bu işə cəlb etmişdi.

Heydər Əliyev Konstitusiya ilə əlaqədar apardığı müzakirələrdə böyük inam və əzmlə qurduğu yeni Azərbaycanın mükəmməl idarəçilik sisteminin yaradılmasını təmin edirdi. Azərbaycan tolerantlığının, Azərbaycan dövləti modelinin dünyada təqdir olunması onun apardığı həmin müzakirələrin nəticəsidir desək, səhvə yol verməriк. Keçmiş irsə və dövlətçilik sahəsində əldə olunmuş nailiyyətlərə hörmətlə yanaşmaqla bərabər Ulu Öndər zamanla, dünya sivilizasiyası ilə ayaqlaşan bir dövlət sistemi qurmaq üçün bütün vasitələri səfərbər etməyi bacarırdı. Ulu Öndər Azərbaycanın yeni Konstitusiyasının məğzini izah edərək deyirdi: *"Bizim Konstitusiyamız Azərbaycanda məhz demokratik, hüquqi, dünyəvi, sivilizasiyalı bir dövlət qurmaq üçün əsas yaratmalıdır, onun əsas qanunu olmalıdır".*

Heydər Əliyev dövlətin ahəngdar fəaliyyətini təmin edən əsas qanunun roluna yüksək dəyər verərək bu sənəddə əsas insan haqları və azadlıqlarının əksini tapmasını, dövlətin xalq üçün olması prinsipini təmin etmiş, *"Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır"* prinsipini qətiyyətlə irəli sürmüşdür.

Ulu Öndərin bu sözlərini onun səmimi etirafları kimi qəbul etmək olar: *"Mən hər bir şeyi qanunla edirəm. Qanun mənim üçün alidir. İndiyə qədər həyatımda, çoxillik həyatımda qanunsuz bir iş görməmişəm, qanunazidd bir iş görməmişəm, ədalətsiz bir iş görməmişəm. İndiyə qədər gördüyüm işlərin hamısına cavabdehəm. Səhvlərim də olubdur, adamların seçilməsində və yerləşdirilməsində səhvlərim olubdur. Bu gün də səhvlər var və bu da təbii haldır".* Böyük rəhbər etimad göstərib vəzifəyə təyin etdiyi şəxslərin, o cümlədən Surət Hüseynov kimi adamların adlarını çəkərək onların dövlətçiliyimizə vurduğu zərbələri qeyd edirdi.

Heydər Əliyevin həyat prinsipi belə idi ki, son nəfəsinə qədər xalqına xidmət edəcəkdir və bunu vəzifə tutmaq üçün yox, Vətən qarşısında borc kimi yerinə yetirəcəkdir. Amma eyni zamanda bu vəzifəni yerinə yetirmək üçün məsuliyyətini dərk etdiyini və heç kəsə güzəştə getməyəcəyini bildirərək deyirdi: *"Mən buraya özüm öz xoşumla gəlməmişəm... bu vəzifəni tutmaq üçün gəlməmişəm. Mən bunun arzusunda olmamışam. Ancaq bir halda ki məni tale buraya gətirib, xalqın iradəsi gətirib, mənim üzərimə bu böyük yük düşübdür - mən bu məsuliyyəti, bu yükü həyatımın son dəqiqəsinə qədər aparacağam və bütün qüvvəmi, biliyimi buna sərf edəcəyəm, heç kəs də bu işdə mənə mane ola bilməz. Kim isə doğrudan bizim dövlətimizin inkişafına kömək etmək istəyirsə, gəlsin əlini uzatsın, kömək etsin. Kömək etmək istəyən heç kimin əlini kənar etməyəcəyəm. Ancaq kimsə mən burada olduğum vaxt gəlib iddialarla nəyəsə nail olmaq istəyirsə, buna nail ola bilməyəcəkdir".* Bu sözlər Ulu Öndərin dövlət mənafelərinin qorunmasında nə qədər qətiyyətli olduğunu bir daha təsdiq edir.

Ulu Öndərin idarəçilik prinsipləri qəti və aydın idi. O, bütün məsələlərdə xalqının və millətinin mənafeyini hər şeydən uca tutur, ictimaiyyətin rəyini diqqətlə öyrənir, qəbul edilən təklifləri real surətdə həyata keçirir, bütün mühüm qərarları ictimai rəy süzgəcindən keçirməklə qəbul edirdi. Bu baxımdan 1995-ci il iyunun 5-dən noyabrın 10-dək Konstitusiya hazırlığı üzrə komissiyasının onun sədrliyi ilə keçirilən 9 iclasında hər maddəni, hər bəndi dəfələrlə müzakirə etməsi çox təqdirəlayiqdir. Heydər Əliyev demokratik, kollegial və eyni zamanda qəti qərarlar qəbul etməklə böyük dövlət xadimi olaraq Azərbaycanın xoşbəxt, müstəqil, əbədi azadlığı, ölkədə bütün vətəndaşların sərbəst yaşaması, həmçinin milli maraqlarının nəzərə alınması üçün təminat yaratmışdır.

Heydər Əliyev hər kəsdən Azərbaycanın dövlətçiliyini qorumaqda yüksək məsuliyyət tələb edirdi. Dövlətin gücünə, xalqın dövləti dəstəkləməsinə və xalqın iradəsinə arxalanan Heydər Əliyev uzaqgörən və realist siyasi xadim kimi bütün dövlət qurumlarının, hüquq-mühafizə orqanlarının, eləcə də ölkədə fəaliyyət göstərən siyasi partiyaların məsuliyyətinin vacibliyini qeyd edərək göstərirdi ki, siyasi partiyalar, yaxud ayrı-ayrı müxtəlif siyasi baxışı olan şəxslər əgər doğrudan da Azərbaycanın dövlətçiliyini qorumaq istəyirlərsə, doğrudan da Azərbaycanda hüquqi, demokratik, milli zəminə əsaslanan dünyəvi, sivilizasiyalı dövlət qurulmasını istəyirlərsə, onlar ölkə üçün vacib tədbirlərin həyata keçirilməsinə, respublikada ictimai-siyasi sabitliyin təmin edilməsinə çalışmalı, sabitliyin pozulmasına yol verməməlidirlər.

Ulu Öndərin yaratdığı Konstitusiyada Azərbaycanın əbədi müstəqilliyinin əsas tezisləri müəyyən edilmiş və xalq tərəfindən alqışlanmışdır. Heydər Əliyevin qətiyyətli idarəetmə sisteminin bütün detallarının hərtərəfli öyrənilməsi və tətbiq edilməsinin Azərbaycanın dövlət quruculuğunda mühüm əhəmiyyəti olmuşdur və bu, Ümummilli Liderin layiqli davamçısı möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ulu Öndərin idarəetmədə bütün qərarları düşünülmüş və razılaşdırılmış şəkildə qəbul etməsi onun mühüm prinsiplərindən biri idi. Məsələn, Konstitusiyanın təkcə 21-ci maddəsi, yəni Azərbaycan dili barədə 3000-dən çox təklif daxil olmuşdu və həmin təkliflərin hər biri diqqətlə öyrənilmiş və geniştərkibli 3 müşavirədə bu fikir öz həllini tapmış və böyük səs çoxluğu ilə referendumda qəbul edilmişdir.

Heydər Əliyevin dövlətçilik prinsiplərinin uğuru və məğzi onda idi ki, o, tutduğu yolun doğruluğuna, düzgünlüyünə, Azərbaycanın bu yolla dünya birliyində özünə layiq yer tutacağına, gündən-günə güclənəcəyinə qəti inanırdı və bu yolda onunla, dövlətlə bir yerdə olan hər kəsin xalqa xidmət edəcəyini vurğulayırdı.

*Ulu Öndərin yüz illiyi onun adına layiq şəkildə respublikanın hər yerində qeyd olunur və Heydər Əliyev irsi daha yaxından öyrənilir, araşdırılır və gündəlik həyatımızda tətbiq edilir. Heç kəs şübhə etmir ki, Heydər Əliyevin qurduğu dövlətin müstəqilliyi əbədi, onun müdrik ideyaları ölməz olacaqdır.*

**Süleyman İSMAYILOV,**
***Azərbaycan Respublikası Prezidenti Administrasiyasının şöbə müdiri***